# Freydin psixoloji təhlillərinin dini əsasları

**Şəlalə Babayeva**
*Azərbaycan Dillər Universiteti*
*"Psixologiya" kafedrasının müəllimi*
**E-mail:** shela357@yahoo.com

**Rəyçilər:** psixol. f. d., dos. M.S. Əliyev,
psixol.ü.f.d., dos. U.M. Qəzvini

**Açar sözlər:** yuxu, psixoanaliz, din, islam
**Ключевые слова:** сон, психоанализ, религия, ислам
**Key words:** dream, psychoanalyze, religion, islam

Freydin bir çox psixoloji tədqiqatlarının əsasları miflərə, əfsanələrə və latın sözlərinin köklərinin araşdırılmasına, keçmiş zamanlardan bu günümüzə gəlib çatan qədim dillərə dayanırsa, deməli dinin sütunlarına söykənən izahlarını da vermək olar.

İslam ölkəsinin müsəlman üzvləri olaraq dinimizin psixoloji, fəlsəfi və bütün digər elmləri özündə ehtiva etdiyini bildiyimizə görə, Freydin psixoloji görüşlərinin dini əsaslarını araşdırmaq zərurəti yarandı. Belə ki, Freyd heç bir dini qəbul etməsinə baxmayaraq, "Musa və təkallahlılıq" kitabında dinin psixoloji əsaslarını araşdırmışdır.

Psixoanalizin ilkin müddəası ilə, psixi proseslərin öz-özlüyündə qeyri-şüuru (şüursuz) olaraq baş verdiyini deyir, onlardan yalnız mənəvi aləmlə bağlı olan kəsiminin şüurlu olduğunu təsdiqləyir [1,19]. Psixoanalizin özünün çox böyük uğuru saydığı ikinci qənaətinə görə, seksuallıq adlanan instinkt əsəb və psixi xəstəliklərin yaranmasında indiyədək dəyərləndirilə bilməmiş çox böyük bir rol oynamaqdadır. Bundan başqa da, psixoanalizin gəldiyi digər qənaətinə görə, yüksək mədəniyyətin, incəsənətin və insan mənəviyyatı ilə bağlı olan sosial dəyərlərin yaranmasında seksual instinkt olduqca böyük rol oynayır və onun təsiri danılmazdır [1, 20]. Quranda belə bir ayə vardır: "(Adəm və Həvva) ondan (həmin ağacın meyvəsindən) yedilər və dərhal hər ikisinin ayıb yerləri göründü. Onlar (lüt bədənlərinə) cənnət ağaclarının yarpaqlarından yapışdırmağa başladılar. Beləliklə, Adəm Rəbbinin əmrindən çıxdı, amma mətləbinə yetmədi [5, 20:121]".

Buradan belə aydın olur ki, Adəm və Həvvanın cənnətdən qovularaq yer üzünə gəlib, burada məskən salması Allahın əmrindən çıxması nəticəsində onlarda yaranan cinsi orqanlarla, seksual instinktlərin əsasının qoyulması ilə bağlıdır. Quranda da seksual instinktlərin rolu bu üsulla, xüsusi olaraq vurğulanır. Freyd qeyd edir ki, biz mədəniyyətin həyati zərurətlərinin təsiri ilə, insani instinktlərin qurban verilməsi hesabına yarandığını düşünürük... seksual instinktin belə bir sıxıntıdan azad olaraq yenidən özünün ilkin məqsədinə qayıda bilməsi toplumdakı oturuşmuş mədəniyyət üçün çox qorxuludur... toplum tərbiyəvi baxımdan çıxış eləyərək, insanların diqqətini bu mövzudan yayındırmağa çalışır [1,21]. Quranda bu instinktlərin düzgün sayılmayan yolla ödənilməsi zina olaraq qeyd edilir, "zinaya da yaxın düşməyin, çünki o, çox çirkin bir əməl və pis bir yoldur [5, 17: 32]". Seksual instinktlərin ödənilməsinin düzgün qaydaları da Quranda göstərilir, eyni zamanda səhv ödənilməsinin də cəmiyyət və insan üçün necə ziyanlı və təhlükəli olduğu qeyd edilir. İnsan nəfsinin seksual instinktlərə qurban verilməsinin dünyanın sonunu yaxınlaşdırılması kimi izah olunur. Dünyanın başlanğıcına gətirən seksual instinktlər dünyanın sonunu da gətirib çıxarda biləcək

qədər təhlükəlidir. Quran bir mədəniyyət nümunəsi olaraq insanlara ayıb yerlərini örtməyi, cinsi istəklərini müəyyən edilmiş çərçivədə ödəmələrini tələb edir, əks təqdirdə mədəniyyətin məhvinə gətirib çıxarıla bilər.

Freydin növbəti araşdırmalarından olan yanılmaları ötəri unutqanlıq olaraq izah edir. Yanılmaların araşdırılmasının önəmini vurğulayaraq onu aşağıdakı kimi şərh edir: "Allahın istəyi olmadan insanın başından bir tük də düşə bilməz... yanılmalar daha dərindən öyrənilərsə, onların da səbəbsiz olmadığını deyəcəksiniz [1,27]". Quranda isə bu cümlə belə bir ayə ilə verilib: "Yerə düşən elə bir yarpaq yoxdur ki, (Allah) onu bilməsin [5, 6:59]". Beləliklə də, səbəb-nəticə əlaqələri burada da aydın şəkildə özünü göstərir. Hər hadisənin bizə bəlli olan və olmayan səbəbləri olduğu kimi, yanılmaların da səbəbləri vardır. Yanılmaların 4 növü qeyd edilir, sözdə, yazıda, oxuda və eşitmədə. Lakin daha çox sözdə yanılmanın araşdırılmasından bəhs edir, digərlərinin də önəmli olduğunu vurğulayır. Yanılmaların əsas səbəblərini isə insanın demək istədiyi, lakin deyə bilmədiyi üçün bir müddətdən sonra unutduğu, bəzən isə gizlətməyə çalışdığı ifadələrlə bağlı olduğunu qeyd edir. Söz yanılması öz məqsədi, bəlli ifadə forması və dəyəri olan dolğun bir psixi fəaliyyət saymaq deməkdir [1,37]. Belə bir atalar sözləri də vardır, dil yanılar doğrusunu deyər. Burada yanılmanın doğru sözü ifadə etdiyinə işarə edilir. Lakin Freydin də qeyd etdiyi kimi, əsas çətinlik burada hansı gerçəkliyi bildirmək istədiyini ortaya çıxarmaqdır. Bəzən dilimiz yanılıb doğru sözü dediyi zaman sözləri bir-birinə qarışdırır, dil topuq vurur. Həqiqəti ortaya çıxarmağın yeganə yolu, Freydin sözləri ilə desək, yalnız və yalnız insanın özündən soruşmaq lazımdır ki, o, bu yanılmada nə demək istəyirmiş?

Quranda insanın unutqan bir varlıq olduğunu qeyd edən və ondan bəhs edən bir çox ayələr vardır. Türklərdə belə bir deyim vardır, üsyanı (Allaha üsyan, günah) çox olanın, nisyanı (unutması) da çox olar [4]. Unutmağın dində də mənfi xüsusiyyətləri geniş şəkildə göstərilmişdir. "Doğrusu, bundan əvvəl Adəmə də (Şeytana uymamağı) tövsiyə etmişdik. Lakin o (tövsiyəmizi) unutdu [5, 20:115]". İnsanın unutqan bir varlıq olduğu ayədə açıq aşkar göstərilmişdir. Əksər insanlar çəkdiyimiz müsibətləri, ağrı və acıları, bizə qarşı edilən pis hərəkətləri unutmağın bizim üçün faydalı olduğunu hesab edirlər. Lakin Freydin fikrinə əsaslansaq, insan unutmur, sadəcə mənfi hadisələr sıxışdırılaraq və ya basdırılaraq şüursuzluğa keçir və oradan da bizi zamanla narahat etməyə və təsir göstərməyə başlayır. Burada əsas məsələ odur ki, biz, bizi nəyin narahat etdiyini anlamırıq ki, bu da nevrozların yaranmasına səbəb olur. Beləliklə, insanın unutduqları yanılmalarda özünü büruzə verir. Deməli, unutmaqla cəzadan qurtula bilmərik. Lakin yanılmalar yalnız unutmaqla bağlı baş vermir. Demək istəyib, amma deyə bilmədiklərimiz də yanılmalarda ortaya çıxa bilər.

Freydin növbəti araşdırmalarından olan yuxuların dini əsasları Quranda göstərilmişdir. Freyd yuxuların və onların yozulmasının önəmini vurğulayır və Quranda da yuxu yozmalarına aid dəlillər vardır. "Yuxu görmələrin özü də nevrotik simptomlardan biri olduğundan və yuxu görmələr sağlam adamlarda da özünü göstərdiyindən, onun öyrənilməsi bizə öz araşdırmalarımızda çox dəyərli bir üstünlük qazandırır. Birdən bütün insanlar sağlam olsaydılar və bununla yanaşı olaraq, onların yuxu görməsi də qalsaydı, onda bu yuxu görmələri araşdırmaqla biz elə nevrozları öyrənməkdən aldığımız sonuclara gəlib çıxardıq [1, 108]". Freyd yuxu ilə bağlı araşdırmalarını belə əsaslandırır ki, psixiatriyada qeyri-müəyyən özəlliyi olan obyektlər heç də az deyildir, yalnız davranışların çoxunun bəlli bir anlamı varsa, deməli yuxuların da anlamı ola bilər. "Yuxunun bioloji anlamı dincəlmək, onun psixoloji göstəricisi isə dünyaya olan marağın itməsidir [1, 116]". Quranda da yuxunun bioloji xüsusiyyətləri belə qeyd olunur, "sizin üçün gecəni örtük, yuxunu rahatlıq yaradan, gündüzü

də (ruzi qazanmaqdan ötrü) həyat (iş, fəaliyyət vaxtı) yaradan Odur [5, 25: 47]". Yuxunun insan üçün nə qədər önəmli olduğunu vurğulayır. Eyni zamanda gecə vaxtı yatmağın insan sağlığına xeyirli olduğu da qeyd edilir. "Yuxunuzu da istirahət etdik [5, 78:9]". Yuxu, eyni zamanda önəmli bir psixi fenomen olduğu üçün, onun yozulması da mühüm əhəmiyyət kəsb edir. Yuxu yozmaları keçmişdən bu günümüzə gələn bir adətdir, lakin Freyd onun elmi əsaslarını araşdırmışdır. Freyd yuxunu arzuların gerçəkləşməsi kimi izah edir, Azərbaycan dilində belə bir deyim var, "yuxunda görərsən", yəni əl çatmaya arzuların yuxunda gerçəkləşər.

Freyd yuxuların izahında xüsusi önəm daşıyan simvolları qeyd etmişdir. Quranda yuxu yozumu ilə bağlı belə bir ayə vardır, "Bir zaman Yusif atasına demişdir: Atacan! Mən (yuxuda) on bir ulduz və Günəşlə ayı gördüm. Gördüm ki, onlar mənə səcdə (təzim) edirlər [5, 12:4]". Burada on bir ulduz Yusif peyğəmbərin qardaşlarının sayını, ay atasını və günəş də anasını göstərir. Həqiqətən də, Yusif peyğəmbər taxtın başına keçdikdən sonra ailə üzvləri ona təzim edirlər. Freyd qeyd edir ki, bizim yuxuları yozmağa başlamağımız onların bəlli anlamlarının olması fərziyyəsi üzərində qurulmuşdur. Burada simvollar üzərindən getsək, "valideynlər imperatorla, imperator xanımı, yaxud da kralla, kral xanımı kimi görünməsi... [1, 221]" kimi götürülür. Kral və imperatorlar hər zaman yüksəkdə, əlçatmaz şəxsiyyətlər olduqlarını nəzərə alsaq, ay və günəş də yüksəkdə duran, əlçatmaz olan obyektlərdir, eyni zamanda bir günəş və bir ay vardır. Deməli, simvollar uyğun gəldiyi üçün ay və günəşi yuxuda valideynlər kimi izah etmək olar. On bir ulduz isə simvol kimi götürsək, rəqəmlər qardaşların sayına uyğun gəlir və ulduzların da ayın başına dolandığını əsas götürsək, ulduz oğlan uşağı kimi simvollaşdırılır. Lakin Freydə görə, "bacı-qardaş və uşaqları kiçik vəhşi heyvanlar yavruları, yaxud da parazitlər kimi obrazlaşırlar [1, 212]". Buna baxmayaraq, yuxu yozmalarında yuxugörənin fikirlərinin və düşüncələrinin də çox önəmli olduğu qeyd edilir.

Bundan əlavə, Yusif peyğəmbərin yuxuda gördüyü rəqəmlərlə bağlı Freydin aşağıdakı fikirlərini qeyd etmək olar: "Yuxugörmənin fəaliyyətinin nə olduğunu və onun öz materialı, fikirləri ilə necə davrandığını onda tez-tez rastlanan rəqəmlərdə və riyazi hesablamalarda son dərəcə əyani şəkildə görmək mümkündür. ...yuxugörmədə rəqəmlər daha mürəkkəb bir rabitəni aşkar edir. ... Növbəti yuxu bizə yuxugörmənin hesablama qabiliyyəti haqda əyani misal təqdim edir [3, 368-370]". Buna baxmayaraq Freyd Yusif peyğəmbərin yuxu yozumunu qəbul etmir, "...yuxugörmənin məzmununu bütöv şəkildə nəzərdən keçirir, ...müəyyən mənada analoji məzmunla əvəz edir. ...Bu yozum isə lap başdan iflasa uğrayır. ...Yusifin fironun yuxularını yozarkən... [3, 112]". Təbii ki, gələcəklə bağlı yozumları və məlumatları vermək xüsusiyyəti yalnız peyğəmbərlərə verilmişdir. Amma yuxu yozumlarının önəmli olduğu Quranda vurğulanmışdır.

Freyd simvollarla bağlı araşdırmalarında qeyd edir ki, "yuxugörmədəki simvolların az qala hamısı seksual obyektlərlə və seksual ilişkilərlə bağlıdır... Yoxsa simvollar ilk öncə yalnız seksual anlamlar daşımış, sonradan isə başqa sahələrdə işlənməyə başlayaraq yeni anlamlar qazanmışlar və simvolik təsvirlərin əks elətdirdikləri növlərdən birindən o birinə keçidi də bununlamı bağlıdır? [1, 233]". Belə aydın olur ki, bir çox insanlar fərqli əşyalara baxdıqda onlara cinsi istək gəlir. Bəlkə də bu səbəbdən Avropa ölkələrində olan "sex-shop"larda satılan adi əşyaları insanlar cinsi istəkləri üçün alır.

Freydin kəşfləri əsasən onun nağıllara, miflərə sadəcə mif kimi deyil, metaforik izah kimi yanaşıb, onları gerçək və gündəlik həyata tətbiq etməklə bağlıdır. İnsanların əksəriyyəti nağıllara uydurma, uşaq əyləncəsi kimi yanaşması düzgün deyil. El arasında belə bir yanlış deyim var, uşaqdır qanmır. Əslində isə uşaq dünyanı nağıllar vasitəsilə metaforik qavrayır.

Freydin belə kəşflərindən olan Edip kompleksini, Narsizmi burada misal göstərmək olar. "Psixoanalitik öz işində humanitar elmlər, mifologiya, dilçilik, folklor, xalqların psixologiyası və ilahiyyatçılıq kimi sahələrlə ilişkilər qurmaqla, onların verdiyi bilgilərdən yararlanmaqla dəyərli sonuca gəlib çıxa bilir [1, 235]".

Yuxu yozmaları ilə bağlı Quranda verilənlərə nəzər yetirsək, görmək olar ki, orada yozumlar gələcəklə bağlıdır, məsələn, Yusif peyğəmbərin yuxunu atası belə yozur: "(Yuxunda gördüyün kimi) Rəbbin səni (başqalarından) seçib üstün tutacaq, sənə yuxu yozmağı öyrədəcək, bundan əvvəl babaların İbrahimə və İshaqa nemətini tamamlayıb (peyğəmbərlik) verdiyi kimi, sənə və Yəqub nəslinə də tamamlayıb verəcək. Həqiqətən, Rəbbin (hər şeyi) biləndir, hikmət sahibidir! [5, 12:6]". Burada peyğəmbərin atası keçmiş zamana da işarə edir, yəni yuxular keçmişdən gələcəyə doğru məlumat verir. Eyni zamanda, yuxuda ayı, günəş və ulduzların təzim etməsi yuxu yozma qabiliyyətinin də ona veriləcəyinə işarədir. Quranda on ikinci surədə bir neçə yuxunun Yusif peyğəmbər tərəfindən yozumu verilsə də, onlar gələcəkdə baş verəcək hadisələrlə bağlıdır. Lakin Freyd yuxunun yozumunu keçmişdə baş verən hadisələrlə əlaqələndirir. Bəzi hissələrini indiki zamana aid etsə də, onları telepatiya kimi izah edir, "yuxu telepatik mesajların almasında xüsusilə əlverişlidir [2, 58]". Bununla belə, Freyd yuxunun keçmişlə əlaqəsini də araşdırır və ona görə, gələcəklə bağlı ola bilməsi isə ümumiyyətlə qəbul edilmir. Quranda Yusif peyğəmbər adi insanların yuxularını yozaraq, onların gələcəkdən xəbər verdiklərini qeyd edir. Yuxu yozmaları yalnız psixologiyanın araşdıra biləcəyi bir sahə deyildir, burada astrologiya, fizika və digər elmlərin də birgə iştirakı zəruridir.

Bununla belə, Freydin yuxu yozmaları nevroz xəstələrini müalicə etməkdə ona kömək etmişdir. Gələcək hər zaman bir sirr olaraq qalmışdır və gələcəyi bilmək yalnız Allahın təyin etdiyi seçilmiş insanlara məxsus olmuşdur. Quranda yuxu yozmalarının önəminin vurğulanması onun araşdırma mövzusu olmasına çevrilməsinin önəmi göstərilmişdir. Freyd tərəfindən psixoloji tərəflərinin araşdırılması yuxunun və onun yozumunun dərin qatlarının və insan həyatı üçün zəruri olduğunu elmi cəhətdən sübuta yetirmişdir.

**Məqalənin aktuallığı.** Müasir dövrümüzdə bir çox elmi tədqiqatların dini kökləri araşdırılır və müqayisəli təhlilləri aparılır. Bir çox yeniliklərin, kəşflərin əsasının vaxtilə dində qoyulduğu ortaya çıxır. Lakin yuxu yozmalarında yaranan fərqlilik bu sahənin daha yaxşı araşdırılmasına yol açır. Mövzunun aktuallığını qoruyan məhz psixoanalizə fərqli prizmadan baxışların mövcudluğudur, çünki müxtəlif yanaşmalar müxtəlif həll yollarının tapılmasına vəsilə olur.

**Məqalənin elmi yeniliyi.** Tədqiqat işində psixoanalizin dini əsaslarının xüsusiyyətləri araşdırılmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqat işində əldə olunan nəticələr praktik psixologiya və ilahiyyat sahəsində təcrübi əhəmiyyət kəsb edir, təhsil müəssisələrinin təcrübəsində tətbiq oluna bilər.

## Ədəbiyyat


1. Freyd Z. Psixoanalizlə ilkin tanışlıq/tərc.: Araz Gündüz. Bakı: Qanun, 2016.
2. Freyd Z. Psikanaliz üzerine/Çev.: A.Avni Öneş. İstanbul, Say yayınla-rı, 2011.
3. Freyd Z.Yuxuların yozumu. Bakı: Qanun, 2014.
4. http://www.dinimizislam.com/detay.asp?Aid=1465
5. http://www.quran.az

**Ш. Бабаева**

## Религиозная основа психологического анализа Фрейда


## Резюме

В наше время исследуется религиозные корни научных исследований и проводятся сравнительные анализы. Многие нововведения, основы открытий были представлены в религии. Однако разница в написании сновидений ведет к лучшему пониманию этой области. Психоанализ, который защищает актуальность темы, существует с другой точки зрения, поскольку различные подходы могут привести к различным решениям.


**Sh. Babayeva**

## Religious basis of Freud's psychological analysis


## Summary

Nowadays, religious roots of scientific research are investigated and comparative analyzes are carried out. Many innovations, the foundations of discoveries were presented in religion. However, the difference in the writing of dreams leads to a better understanding of this area. Psychoanalysis, which protects the relevance of the topic, exists from a different point of view, since different approaches can lead to different solutions.


**Redaksiyaya daxil olub:** 16.11.2018